

Dr. Telman Ibrahimov
Azerbaijan National Academy of Sciences

FIRLANAN GÜNƏŞ.
QƏDİM TALİSMANIK İŞARƏNİN MƏNŞƏYİ VƏ SİMVOLİZMİ

SUMMARY
SYMBOL OF THE ROTATING SUN.
ORIGIN AND SYMBOLISM OF THE ANCIENT TALISMANIC SIGN

The symbol of the rotating sun, which arose in the Neolithic era, was different from the older sign of the sun, in which there was no rotation. The static sign of the sun with direct rays extending from the center symbolized the invisible, divine sun. It was the sun that continued to shine when primitive people did not see it. Actually, it was a picture of a star in the night sky.

The sign of the rotating sun symbolized the daytime, visible, physical sun. The sun of the physical world, which gives eternal life. The dream of eternal life led to the appearance of this sign on gravestones. The magic sign of the rotating sun was supposed to initiate the afterlife resurrection of the deceased, illuminate his path to paradise and grant him eternal life there.

Günəş, ay və ulduzlar hələ ibtidai dövrdən insanların diqqətini özlərinə cəlb edərək, onların dünya və həyat haqqında təsəvvürlərində yer alaraq, daimilik, əbədilik, ilahilik ideyalarının mühüm simvollarına çevrilmişlər.

Ən erkən, ibtidai qayaüstü təsvirlərdə günəş çevrə şəklində və ya - mərkəzdən kənarlara şualanan ulduz şəkilində təsvir olunurdu. Mərkəzdən-xaricə düz xətlərlə şüalanan günəş təsviri hərəkətsiz, gecə vaxtı görünən ulduzların görünüşünü əks edirdi.

Neolit dövründə əkinçiliyin yaranması və araba təkərinin kəşfi ilə qayaüstü təsvirlərdə və keramikada öz oxu ətrafında fırlanaraq hərəkət edən günəş təsvirləri də meydana gəlir.

Yeni, öz oxu ətrafında fırlanan günəş təsviri əvvəlkindən onunla fərqləndi ki, ikincidə mərkəzdən xarici çevrəyə yönəlmiş şüalar düz xətli deyil - sivri formalı təsvir olundular. Şüaların sivri forması günəşin öz oxu ətrafında fırlanmasını təqlid edərək, hərəkətdə olan günəş ideyasını

simvolizə etməyə başladı. Artıq bu dövrdən ibtidai mədəniyyət simvolizmində hərəkətsiz(sabit) və hərəkət edən(fırlanan) günəş simvolları fərqli görkəmdə və mənalarda təsbit olundular.

Yeni daş dövrünün dualasit(ikili) dünyagörüşündə bu simvollar vahid əksliklər ideyasını ifadə edərək, günəşin gündüz və gecə zamanı fərqli görünüşlərini və simvolizmlərini işarələndirmişlər.

Yer kürəsinin öz ətrafında çox aşağı sürətlə fırlanması ibtidai insanların bu hərəkəti dərk edilməsinə mane olduğundan, onlar gecə səmasında görünən ulduzları hərəkətsiz, daima öz yerində qalan səma cisimləri hesab etmişlər. Bu səbəbdən, ulduzlar təsvir olunarkən, hərəkətsiz təsvir edilmişlər.

Gecə ulduzlarından fərqli olaraq, gündüz səmasında görünən günəşin sürətlə hərəkət etməsini ibtidai insan daha aydın görə bilmişdi. Belə müşahidələr nəticəsində formalaşan ibtidai təsəvvürlərdə günəş əksliklərə malik ambivalent(ikili) simvolik obraz əldə etmişdir. Günəşin gecə və gündüz həyatını fərqli simvollar vasitəsilə ifadə edən insanların dini təsəvvürlərində günəş obrazı birləşərək, sonsuz, əbədi həyat anlayışını işarələndirmişdi.

İki fərqli görkəmdə təsvir olunan günəş – vahid əksliklər simvolizmininin qütbləri şəklində ifadə olunaraq: düz xətlərlə şüalanan günəş – gecə vaxtlarında ilahi aləmdə olduğundan gözlə görünməyən günəşi; hərəkətdə olan(fırlanan) günəş isə - fiziki dünyanın və həyatın gözlə görünən günəşini simvolizə etməyə başlayır. Günəşin ilahiləşdirilməsi nəticəsində düz xətli, sabit şualanan ulduz - ilahini, əbədiliyyatı; sivri şüalar vasitəsilə öz oxu ətrafında fırlanaraq hərəkət edən günəş isə - fiziki həyatı, cismaniliyi və faniliyi ifadə etməyə başladılar.

Tunc və dəmir dövrünün keramikası və bədii metalında da belə fərqli günəş simvollarına rast gəlinir. Fırlanan günəş dairəvi forması ilə bərabər – dördkünc forma da əldə edərək, dəfn ayinlərində istifadə edilən gil möhürlər üzərində, müxtəlif svastika variantlarında nəzərə çarpmağa başlayır. Belə svastikalı gil möhürlərin yalnız məzar inventarında tapılması onların bilavasitə dəfn ayini ilə əlaqəli olmasını sübut edir.

Svastikalı(fırlanan günəş) gil möhürlər vasitəsilə axirət həyata hazırlanan mərhumun bədəninə, əllərinə xına tipli bitki boyaqlar vasitəsilə günəş möhürü tatu olaraq vurulurdu. Bununla, dəfn olunan mərhum özü ilə qaranlıq, axirət dünyasına - işıq və həyat rəmzi olan günəşi(svastika) aparırdı. Bu həyatverici günəş mərhumun axirət dünyasında yenidən diriləərək, əbədi həyata qovuşmasının magik simvolu idi.

Antik dövrdə dünyagörüşlərin əsatirləşməsi nəticəsində günəş özünün ulduzvari sivolu ilə bərabər, yeni - zoomorf simvolunu da əldə edir. Artıq bu dövrdən günəş şir obrazında təsvir olunmağa başlayır. “Fırlanan gnəş”(svastika) simvolunu Manna dövrünə aid, Həsənlidən (İran Azərbaycanı)tapılmış məşhur Qızıl cam üzərindəki şir təsvirində görmək mümkündür.

Erkən Orta əsrlərdə təktanrılığın bərqərar olması qədim “fırlanan günəş” işarəsini və onun mənasını yeni dini kontekstən çıxara bilməmişdir. Köhnə dünyagörüşün və ibtidai simvolizmin qalığı olan “fırlanan günəş” işarəsi yenidən məzar abidələrinin işarə potensialında özünə yer tutur.

Qafqaz Albaniyası dövrünün məzarlarında bu simvol bəzi hallarda düzxətli şüalanan günəş və ya ay simvolu ilə birgə təsvir olunur. Albanların sinkretik dünyagörüşündə səma cisimlərinə sitayiş hələ antik dövrlərdən miras qalmışdı. Vaxtilə antik Albaniyada Ay və Günəş tanrıları və onlara ibadət dövlət dini statusuna malik olmuş və məbədlərdə onların şərəfinə ibadətlər keçirilmişlər. Xristianlığın şərq məzhəbinin Abaniyada yayılması ilə köhnə inamların hamısı aradan çıxmır, səma cisimlərinə sitayiş xristian dini-ideoloji kontekstinin sinkretik işarələri kimi məzar daşlarının üzərində albanların əbədi həyata inamını əks edirdi.

Azərbaycanın islam dini yayıldığı ərazilərində də “fırlanan günəş” simvoluna məhz məzar daşlarının üzərində daha çox rast gəlmək mümkündür. Ehtimal etmək olar ki, bu simvolun hələ ibtidai dövrdə yarandığı mahiyyəti minilliklər boyu yaddaşdan itirilməmiş, yerli xalqların dəfn mədəniyyəti və məzar simvolizmində təzahür etmişdi. Xristian albanlarda olduğu kimi, yerli müsəlmanların da dini səma cisimlərinin ibtidai simvolik mənalarını yeni təfsirlərlə zənginləşdirərək sa İslam kontekstində saxlaya bilmişlər.

Lakin islam kontekstində “fırlanan günəş” simvolu yeni məna kəsb edərək, qoruyucu, müdafiəedici mistik simvola çevrilərək, dünyəvi və dini kontekstlərdə görünməyə başlayır. Simvolun dünyəvi kontekstdə təsvirinə biz orta əsrlər əlyazma kitablarını bəzəyən illüstrasiyaların düyüş səhnələrində görə bilirik. Belə səhnələrdə fırlanan günəş simvolu döyüşçünü müdafiə edən hərbi qalxana çevrilmiş şəkldə nəzərə çarpır. “Fırlanan günəş”in döyüş qalxanı üzərinə hək edilməsi bu qədim simvolun mistik qoruyucu gücüə malik olmasına inamın hələ də saxlanmasını əks edir.

Dini kontekstə isə, “fırlanan günəş” simvolu əsasən məzar simvolizminin mühüm işarəsi kimi qəbir daşlarının üzərində nəzərə çarpır. Burada “fırlanan günəş” simvolunun ibtidai dövrdən gələn hər iki məzmunu iştirak edir: bir tərəfdən simvolun qoruyucu, talismanik kəramətinə inam, digər tərəfdən isə - hərəkətdə olan həyatverici günəşin əbədi həyat bəxş etməsinə inam.

Bu simvolun məzar simvolizmində rolu - dəfn olunanın məzardan cənnətə köçdüyü zaman qaranlıq axirət dünyasından müvəffəqiyyətlə keçməsini, orada azmamasını təmin edən ilahi işıq mənbəyi olmasındadır. Bu yerdə, məqalənin əvvəlində danışdığımız tünc dövrü qəbirlərində skeletlərin yanından tapılmış “fırlanan günəş” simvollu gil möhürləri yada salmaq yerinə düşərdi. Minilliklərdən keçən simvol və onun dəyişməyən mənası.

Eyni zamanda, həyati müşahidələrə və inama əsasən, “fırlanan günəş” əbədi həyatın mistik daşıyıcısı və simvolu kimi mərhuma fiziki həyatdan sonra əbədi həyat bəxş etməli idi.

Beləliklə, nəticə olaraq etiraf etməliyik ki, “fırlanan günəş” simvolu ibtidai dünyagörüşün mühüm kosmoqonik simvolu kimi yaranaraq, insan tarixinin bütün sonrakı mərhələlərindən keçərək, orta əsrlərin sonunadək məzar simvolizmində öz mahiyyətini və mistik kəramətini saxlaya bilmişdir.

“Fırlanan günəş” simvolunun Azərbaycan bölgələrində məzar simvolizmində sonuncu geniş istifadəsi XX ə. əvvəllərinə təsadüf edir. Azərbaycanda XX ə 20-ci illərindən bərqərar olmuş yeni Sovet ideologiyası bu qədim simvolun xalqın inamlar sistemindən və məzar simvolizmindən çıxarılmaısına gətirib çıxardı.

ƏDƏBİYYAT

1. Məşədixanım Neymətova. Əsrlərin daş yaddaşı. Bakı, “İşıq” 1987
2. Нейматова М.С. Мемориальные памятники Азербайджана. Баку, «Элм», 1981
3. Неймат М.С. Корпус эпиграфических памятников Азербайджана. Баку, «Элм», 1991
4. Məşədixanım Neymət. Azərbaycanın epiqrafik abidələri toplusu.Bakı, “Elm və təhsil”,2011`
5. Rasim Əfəndi. Azərbaycan dekorativ-tətbiqi sənətləri. Bakı, “İşıq” 1976
6. Расим Эфенди. Каменная пластика Азербайджана. Баку, «Ишыг» 1986

ŞƏKİLLƏR



A



B



C





D

A.B.C - Qobustan; D – Kəlbəcər




A,B,C - Qazax(Sarıtəpə); D,E – Göygöl(Gəncəçay); F – Qaraçəmirli (Şəmkir)










XVI ə. Əlyazma kitablarında döyüş səhnələri



A



B, C

A – Astroloji risalə. Səfəvi dövrü 18 ə. B,C – Məzarlar. Urud kəndi(Zəngəzur). 16 ə.



A



B





C



D

A,B,C,D - Alban dövrünün məzar abidələri. XVI – XVII ə.ə.























29/04/2013 15





A



B



C

A – Alıc kənd məscidinin qapısı. XVIIIə. ; B – Quran qabı. Şəki. XIXə. ;

C – Məscidin sütun başlığı. Quba.Xuç kəndi